# Məmməd Səid Ordubadinin Bakı şəhərində fəaliyyət göstərən Xatirə Ev-Muzeyi

**Görkəmli yazıçı, publisist, dramaturq, tərcüməçi, jurnalist, libretto müəllifi ictimai xadim Məmməd Səid Ordubadinin xatirə muzeyi sabiq Azərbaycan SSRI MK və Azərbaycan SSRI Nazirlər Sovetinin 1976-cı il 16 iyun tarixli " Dahi ədəbiyyat və incəsənət xadimlərinin xatirə muzeylərini yaratmaq" adlı və Azərbaycan SSRI Mədəniyyət Nazirliyin 1979 cu il 31 oktyabr 398 saylı əmrinə əsasən 1 noyabr 1979 cu ildə yaradılıb.**

Muzey ədibin yaşayıb- yaratdığı mənzildə yerləşir ,elmi tədqiqat və mədəni – maarif müəssisəsi olmaqla yanaşı , həm də M.S.Ordubadinin yaradıcılıq yadigarlarının mühafizəçisidir. Ədib 1938 cı il ildən ömrünün sonuna -1950 cı il mayın 1nə qədər bu mənzildə yaşayıb -yaratmışdır. Xatirə muzeyi Bakının mərkəzi küçələrindən biri olan Xəqani küçəsində yerləşir. Binanın memarı Mikayıl Hüseynovdur.

M.S.Ordubadinin xatirə muzeyində saxlanılan eksponatlar yazıçının keçdiyi həyat yolu, yaradıcılığı barədə dolğun təsəvvür yaradır. Eksponatların hamısı ədibin şəxsi arxivinə aiddir.

Muzey 2 otaqdan ibarətdir. 1ci otaq M.S.Ordubadinin həm iş, həm də qonaq otağı olub.Otaqda ədibə məxsus məişət əşyaları, mebel, o cümlədən məşhur tarixi romanlarını qələmə aldığı yazı masası, fotoşəkillər , kitablar nümayiş olunur. Otağa yaraşıq verən eksponatlardan biri də Azərbaycanın Xalq rəssamı Altay Hacıyev tərəfindən yağlı boya ilə işlənmiş Ordubadinin portretidir. Otağın görünüşü ədibin həyatının son anlarında olduğu kimi qorunub saxlanmışdır. Məhz bu otaqda ədib özünün ən məşhur "Gizli Bakı", " Döyüşən şəhər", " Qılınc və qələm", " Serjant İvanov adına körpələr evi" və s əsərlərini yaratmışdır.

2-ci otaq ekspozisiya otağıdır. Burada ədibin çoxşaxəli yaradıcılığı əks olunur. Bu otaqda M.S.Ordubadi libtrettoçu, publisist, şair və dramaturq kimi təqdim olunur. Bundan əlavə ədibin sürgün illərindəki fəaliyyəti, " Dumanlı Təbriz" romanının əlyazmaları və onun adını ədəbiləşdirən məkanların fotoları nümayiş olunur. Eyni zamanda vitrinlərdə ədibin ilk kitabları olan " Qəflət" , Vətən və Huriyyət ", M.S.Ordubadinin atası Hacı Ağa Fəqirin "Ağlar qələm əlimdə " şerlər kitabı , "Molla Nəsrəddin" jurnalı nümayiş olunur.

Milli səhnə sənətinin inkişafı üçün yorulmadan çalışan Ordubadi istetadlı bəstəkar M.Maqomayevin “ Nərgiz” operasının , Üz Hacıbəylinin “ Koroğlu” operasının Ə.Bədəlbəylinin “ Nizami” operasının, F.Əmirovun “ Ürək çalanlar” musiqi komediyasının , S.Rüstəmovun” Beş manatlıq gəlin” musiqili komediyasının lebrettoların müəllifidir. Həmin əsərlərdən çəkilmiş şəkillər ekspozisiya otağında nümayiş olunur. Eyni zamanda M.S.Ordubadinin Ordubad şəhərində doğulduğu evin şəkili, hal-hazırda muzeyin yerləşdiyi binanın fasadının görünüşü, Fəxri Xiyabanda M.S.Ordubadinin məzarüstü abidəsi , ədibin müxtəlif illərdə layiq görüldüyü mükafatlar, dahi şəxsiyyətlərin Ordubadi haqqında söylədiyi sözlər bu otaqda nümayiş olunur.

Muzeyinin əsas fondunda 2000 ə yaxın eksponat toplanmışdır. Onlardan 300-zü muzeyin ekspozisiyasında nümayiş etdirilir.

Hər il muzey ali , orta təhsil ocaqları və digər mədəniyyət müəssisələrilə müqavilələr bağlayır, muzey daxilində açıq qapı günü və açıq dərslər keçirir. Bundan başqa mütləq şəkildə muzeyin fond müdürü və digər əməkdaşları fondu zənginləşdirmək məqsədilə Ordubadi dövrünə aid olan əşyalar , fotoşəkillər, kitablar əldə edir. Muzeyin elmi heyəti (elmi işçi və bələdçilər ) il ərzində mediyada müxtəlif məqalələrlə çıxış edirlər. Qeyd edək ki,muzeyin nəzdində muzeyin yaranma tarixindən başlayaraq Muzey Şurası fəaliyyət göstərir. Muzeyin direktoru Lalə Abas-zadə 2005 ci ildən - Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycan Milli Komitəsinin üzvüdür . İCOM un xəttilə keçirilən konfrans, seminar və iclaslarda fəal iştirak edir.







## Yazıçının dünyaya göz açdığı Ordubad şəhərində fəaliyyət göstərən Ev-Muzeyi

Böyük ədibin ömür yolunu xatirələrdə, eksponatlarda yaşadan bu ev 1972-ci ildə ədibin yüzillik yubileyi münasibəti ilə qapılarını muzey kimi tamaşaçıların üzünə açıb. Gələn nəsillər qüdrətli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadini daha yaxşı tanısın, ədəbi irsini daha dərindən öyrənsinlər deyə.


ORDUBADİNİN
EV
MUZEYİ









**M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası**

**e-kitab.nakhchivan.az**




**<u>Məmməd Səid Ordubadinin Fəxri xiyabanda qəbrüstü abidəsi.</u>**